# Şuşa İslam dünyasının da paytaxtlığını qəbul etdi



**Dünən Şuşada Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı başlanıb.**

Məlum olduğu kimi, hazırkı "Xarıbülbül" festivalı "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ili çərçivəsində keçirilən tədbirlərlə üst-üstə düşüb. Festivalın açılış mərasimindəki çıxışında dövlətimizin başçısı Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı elan olunmasına görə ICESCO-ya, onun rəhbərliyinə, ICESCO-ya üzv dövlətlərə – qardaş ölkələrə öz təşəkkürünü bildirib və Azərbaycanın İslam həmrəyliyi istiqamətində ardıcıl fəaliyyət göstərdiyini, İslam dünyasının birləşməsinə çalışdığını söyləyib.

Prezidentin dediyi kimi, işğala baxmayaraq, Şuşa öz ruhunu – Azərbaycan ruhunu illərcə qoruyub saxlaya bilib. Şuşaya gələn hər kəs əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Cənab İlham Əliyev uzun fasilədən sonra azad Şuşanın ilk sakinlərini qəbul etməsini də növbəti uğurlu addım adlandırıb. Şəhərin küçə döyüşləri nəticəsində azad edilməsinin tariximizin parlaq səhifəsi olduğunu bir daha vurğulayan dövlətimizin başçısı deyib: "Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir".

Prezident, həmçinin Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər getdiyini, Şuşanın, sözün əsl mənasında, dirçəldildiyini təqdir edib. Bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacağına möhkəm əminliyini bildirib: "Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin".

Xatırladaq ki, "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı ilk dəfə Şuşada 1989-cu ildə keçirilib. Lakin erməni təcavüzü səbəbindən Qarabağın işğalı illərində festival keçirilməyib. Nəhayət, 2020-ci ildə 44 günlük Zəfər Yürüşü ilə Şuşa və Qarabağın digər əraziləri azad edildikdən sonra 2021-ci ildə "Xarı bülbül"ün Şuşada keçirilməsinə yenidən başlanılıb.

Festivalda 50-dən çox müsəlman dövlətinin təmsil olunduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qurum olan ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik də çıxış edib. "ICESCO fəxr edir ki, Prezident İlham Əliyev onun planlarını və Azərbaycanla bağlı proqramlarını dəstəkləyir və təşkilat da öz növbəsində ona öz vəfa borcunu yerinə yetirir", – deyən natiq əlavə edib ki, Şuşanın havası təmiz, insanların hissləri pakdır. Buna görə də təəccüblü deyil ki, Şuşa bütünlüklə Qafqazda musiqinin paytaxtıdır, təsviri sənətin məkanıdır, gözəl Azərbaycan xalçasının Vətənidir, musiqi, fikir və şairlər yurdudur. Birinci vitse-prezident, birinci xanım, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu qarşısına nəcib hədəflər qoyub. Fond Qarabağın başqa yerlərində olduğu kimi, Şuşa şəhərinin abadlaşdırılması, yenilənməsi yükünü də öz üzərinə götürüb. Biz bu işlərin hər yerdə vüsət aldığının şahidiyik. Bu nümunəvi Fond qısa vaxt ərzində əldə etdiyi nailiyyətlərə görə təbrikə layiqdir.

Qeyd edək ki, mayın 11-də Heydər Əliyev Fondu və ICESCO arasında əməkdaşlığa dair memorandum imzalanıb. Bu sənəd mədəniyyət, elm və təhsil, yeni texnologiyaların inkişafı sahələrində təcrübə mübadiləsinin aparılmasını, eyni zamanda, birgə layihələrin icra olunmasını nəzərdə tutur.

Rəsmi açılışın ardınca festivalın ilk konserti olub. Musiqili kompozisiyanın müşayiəti ilə 27 Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil olub. Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan, Türkiyədən olan yaradıcı kollektivlər də səhnədə yer alıblar.

Konsertdə məşhur ifaçılar – Azərbaycandan Arif Babayev, Zeynəb Xanlarova, Polad Bülbüloğlu, Qazaxıstandan Əlişer Kərimov, Qvineyadan Aboubakar Silla, Özbəkistandan soydaşımız Nəsibə Abdullayeva, Türkiyədən Hüsnü Şenlendirici, həmçinin, "Natiq" ritm və "Aşıqlar" qrupları, Azərbaycan Dövlət Rəqs Ansamblı, qardaş ölkələrin rəqqasları və digərləri çıxış ediblər. Açılış təntənələri iştirakçıların ifasında festivalı rəmzi təcəssüm etdirən "Səsin gəlsin, Xarıbülbül" mahnısı ilə yekunlaşıb.

Şuşanın rəmzi olan gülün adını daşıyan VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı bu gün Şuşada, sabah isə Laçında davam edəcək. İnanırıq ki, bu dostluq və musiqi bayramı da milli-mədəni adət və ənənələrimizin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradaraq, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə dəyərli töhfə olacaq.

**XQ**